BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 Sosial-siyasi elmlər seriyası 2005

# FƏLSƏFƏ, SOSİOLOGİYA

## FƏALİYYƏT SİSTEM KİMİ VƏ ONUN ƏSAS ÜNSÜRLƏRİ

**İ.S.QILICOV**

*Məqalədə mürəkkəb ictimai hadisə olan fəaliyyətin öyrənilməsində sistemli təhlil metodunun mühüm rolu əsaslandırılır. Müxtəlif meyarları kompleks vəhdətdə götürməklə fəaliyyətin daxili strukturu açılır, onun subyekt-obyekt yarımsistemləri tədqiq edilir.*

*Müəllif həm də fəaliyyətin növləri üzrə təsnifatına geniş diqqət yetirir, dəyişdirici, idrakı və dəyərləndirici – səmtləşdirici fəaliyyət formalarının hər birinə xas olan özünəməxsus cəhətləri açıqlayır.*

Mürəkkəb sosial hadisələrin tədqiqində əlverişli metodoloji prinsip olan sistemli təhlili insan fəaliyyətinin araşdırılmasında da uğurla tətbiq etmək mümkündür. Bu onunla izah edilir ki, sistemli obyektlər üçün səciyyəvi olan əsas xassələr (strukturluq, bütövlük, çoxpilləlilik, ətraf mühit ilə əlaqəlilik və s.) fəaliyyətə də məxsusdur. Sonuncu, mürəkkəb, dinamik və öz-özünü idarə edən sistemlər tipinə aiddir.

Müasir fəlsəfi ədəbiyyatda doğru olaraq göstərilir ki, sistemli yanaşma metodologiyası «elmi tədqiqatların fundamental strategiyalarından biri, mürəkkəb təşkil olunmuş obyektləri, adekvat idraki vasitələrlə öyrənməyin tarixi tələbatı və zərurətidir»(11, s.77).

Sistemli yanaşmanın üstünlüyü həm də bundadır ki, o fəaliyyətin bütün müxtəlif növlərini və formalarını bütöv bir tam kimi ayrılmaz vəhdətdə götürür. Bununla yanaşı, fəaliyyət anlayışının mahiyyətində təzahür edən çoxölçülülük keyfiyyəti onu yarımsistemlərə ayırmaq işində bir sıra çətinliklər yaradır. Çünki insan fəaliyyətinə müxtəlif meyarlardan yanaşmaqla onun çoxsaylı daxili komponentlərini müəyyən etmək olar.

Yaxın vaxtlara qədər ictimai həyati fəaliyyət mövqeyindən izahetmə metodologiyası çox geniş yayılmışdı. O, müasir sosial idrakda da öz əhəmiyyətini saxlamaqdadır. Doğrudur, bu prinsipi K.Marksın adına yazmaqla, ondan imtina etmək fikrini irəli sürənlər də vardır. Lakin 2001-ci ildə filosoflar, psixoloqlar və sosioloqlar arasında keçirilən elmi mübahisələr göstərdi ki, fəaliyyət mövqeyindən yanaşma prinsipinin məhdud cəhətlərini aradan qaldırmaqla, ondan bu gün də istifadə etmək məqsədəuyğundur (8, s.61).

Sistemli təhlil metodologiyası fəaliyyətin tədqiqində hər şeydən əvvəl aşağıdakı üç səpkini (predmet, funksional və tarixi)

seçib götürməyi tələb edir (15, s.61). Birinci səpkinin mahiyyəti, fəaliyyəti təşkil edən əsas ünsürləri və komponentləri (yarımsistemləri) aşkara çıxarmaqdır. Buraya həm də həmin ünsürlərin sistem daxilində qarşılıqlı əlaqələrinin aşkarlanması aiddir. Funksional səpki sistem kimi götürülən fəaliyyətin ünsürlərinin nisbi sabit və sahmanlı düzülüşü qaydalarını, onların qarşılıqlı rol münasibətlərini təhlil etməyi əsas vəzifə kimi irəli sürür. Nəhayət, tarixi səpki adından məlum olduğu kimi fəaliyyətin təşəkkülü və inkişafı prosesinin əsas mərhələlərini nəzərdən keçirir.

Fəaliyyəti sistem kimi araşdırmaq, onun tərkibinə daxil olan tərəfləri sadəcə qeyd etməklə məhdudlaşmır. Başlıca vəzifə həmin tərəflərin bütöv bir tam və vəhdət halında çıxış edərək, fəaliyyət sistemini necə yaratdığını aşkarlamaqdır. Bu məqsədə nail olmaq üçün fəaliyyəti təşkil edən komponentlərin daxili qarşılıqlı əlaqələrinin mahiyyətini və qanunauyğunluqlarını öyrənmək tələb olunur. Başqa sözlə, bu, fəaliyyətin strukturunu açmaq deməkdir, çünki məhz strukturluluq fəaliyyətə bütövlük verir, onu öz tərkib hissələrinin mexaniki məcmusundan keyfiyyətcə fərqləndirən bütövlük kimi səciyyələndirir.

Sistem kimi götürülən fəaliyyət ictimai münasibətlər ilə sıx əlaqədə çıxış edir. Belə ki, insanlar fəaliyyət prosesində bir-birilə müxtəlifyönlü və çoxölçülü münasibətlərə daxil olurlar. Digər tərəfdən fəaliyyətin doğurduğu bu münasibətlər həmin fəaliyyət üçün zəruri ictimai forma rolunu oynayır.

Öz xarakterinə görə yaradıcı məna kəsb edən fəaliyyət gedişində insanlar, mövcudluğu və inkişafı daha yaxşı təmin edən şərait yaratmaq üçün sosial mühiti dəyişdirirlər.

Fəaliyyət prosesində vaxtı çatmış ictimai tələbatlar həyata keçirilir, zəruri olan məqsəd və vəzifələr reallaşdırılır. Həmin proses ümumsosioloji qanunların təsiri altında gedir. Fəaliyyət bütövlükdə cəmiyyətin və ayrılıqda götürülmüş hər bir insanın həyatında müstəsna dərəcədə böyük rol oynayır. Əslində o ictimai münasibətlər sisteminin sosial institutların və təşkilatların, habelə konkret fərdin şüurunun və təfəkkürünün inkişaf etdirilməsinin əsas hərəkətverici qüvvəsi kimi çıxış edir.

Hər bir fəaliyyətin ilkin özəyini sosial hərəkət təşkil edir. Təsadüfi deyildir ki, M.Veberdən başlayaraq müasir dövrdə T.Parsonsa qədər bir çox böyük nəzəriyyəçilər sosial hərəkəti fəaliyyətin əsası saymışlar (12, s.154) Hər bir sosial hərəkət öz xarakteri və istiqamətindən asılı olmayaraq iki zəruri struktur komponentdən (hərəkətin subyekti və obyekti) ibarətdir. Başqa sözlə, bu o deməkdir ki, hərəkət edən kimdir və onun hərəkət qabiliyyəti nəyə yönəlmişdir. İnsan fəaliyyətinin hər bir ən sadə növündə zəruri fəaliyyət qabiliyyətinin daşıyıcısı olan subyekt və onun məqsədyönlü yönəldiyi sahə-obyekt iştirak edir.

Fəaliyyət sistemində subyekt və obyekt tərəflərinin ayrılmaz vəhdətdə çıxış etməsi təsadüfi deyildir. Bu onunla izah edilir ki,

sosial hadisələr subyektiv ilə obyektivin çulğalaşmasıdır. Əslində bu təkcə fəaliyyətin deyil, bütövlükdə sosial reallığın spesifikliyini ifadə edir (18, s.6).

Qeyd etmək lazımdır ki, sosial hərəkətin bu bipolyar strukturu hamı tərəfindən birmənalı qəbul olunmur. Bəzi filosoflar burada subyekt və obyekt ilə yanaşı, tələbatları, mənafeləri, məqsədi, motivləri, stimulları, dəyərləri və digər ünsürləri də götürürlər.

Fikrimizcə, bu mövqeyə haqq qazandırmaq olmaz. Doğrudur, həmin amillərin hamısı sosial hərəkətdə əhəmiyyətli yer tutur. Lakin onlar fəaliyyətin əsas sövqedici qüvvələri kimi çıxış edirlər. Buna görə də onları hərəkətin bilavasitə strukturuna aid etmək o qədər də məqsədəuyğun deyildir.

Fəlsəfi ədəbiyyatda bəzən hərəkətin tərkibində subyekt və obyekt ilə yanaşı üçüncü bir üzvü – fəaliyyətin vasitələrini (yəni subyektin öz məqsədyönlü təsirini obyektə keçirdiyi vasitəni) də seçib ayırırlar. Məsələn, L.P.Bueva yazır: “Fəaliyyətin alət və vasitələri ictimai insanın “süni” orqanları” sistemidir, onlarsız fəaliyyətin subyekti boş abstraksiyadır (3, s.74). Bu qəbildən olan baxışlarla da razılaşmaq çətindir. Çünki dərindən nəzər saldıqda görünür ki, əmək fəaliyyətinin vasitələri boş kateqoriya olmayıb, əmək obyektinin göstəricilərinə daxildir.

Fəaliyyətin strukturunun üçüzvlü bölgüsünü iddia edən digər bir baxış göstərir ki, onun tərkibinə subyekt və obyektdən əlavə, həm də bunların hər ikisindən fərqlənən subyektin obyektə təsiri prosesi də daxildir (13, s.246). Fikrimizcə, bu mövqenin əsasında vaxtilə K.Marks tərəfindən irəli sürülmüş sadə əmək aktının aşağıdakı üç tərəfdən (əmək predmeti, əmək vasitələri və məqsədyönlü əmək prosesinin özü) ibarət olduğu haqqında müddəa durur.

Sözügedən yanaşmaya da bəraət qazandırmaq doğru deyildir, çünki həmin “yeni hesab olunan üzv” əslində subyektin öz fəaliyyət qabiliyyətini reallaşdırmasıdır. Buna görə də ona ayrılıqda götürülmüş xüsusi komponent kimi yanaşılmamalıdır.

Qeyd etmək lazımdır ki, subyektin fəaliyyət göstərmə qabiliyyəti ilə real fəaliyyəti bir-birindən fərqli anlayışlardır. Bununla əlaqədar, məsələn, yuxuda yatan adamın vəziyyətinə diqqət yetirək. O, fəaliyyət qabiliyyətini özündə saxlayır, ümumi mənada götürdükdə real fəaliyyət göstərmir. Amma sosial fəlsəfi baxımdan yanaşdıqda yuxuda olan adamın fəaliyyətsiz olduğunu iddia etmək doğru olmazdı, çünki, o xüsusi fəaliyyət növünün – öz həyati qüvvələrinin bərpasına yönələn fəaliyyətin subyekti və obyektidir. Vaxtilə M.Veber bu qəbildən olan situasiyaları nəzərdə tutaraq yazırdı ki, fərdin və ya fərdlərin öz subyektiv mənası ilə əlaqəli olan hər cür aktivliyi hərəkət (fəaliyyət) deməkdir. Hətta hərəkətin müəyyən məqsədə nail olmaq üçün xüsusi cəhdlərin göstərilmədiyi, yalnız müdaxilə etməkdən və sadəcə qəbul etməkdən ibarət olduğu situasiyalar da buraya aiddir” (4, s.602-603).

Sosial hərəkətin bu cür geniş anlaşılması ənənəsi sonrakı

dövrlərin fikrində də davam etdirilmişdir. Belə ki, XX əsrin ən böyük sosial filosoflarından olan P.Sorokin göstərirdi ki, sosial hərəkət təkcə "aktiv" deyil, həm də passiv ola bilir, sonuncu hal xarici təsir aktlarına bitərəf münasibət göstərməyi nəzərdə tutur (14, s.195).

Bəzi kitablarda sosial hərəkətin strukturunun daha geniş təsviri ilə rastlaşırıq: hərəkət edən sosial subyekt; hərəkətin obyekti; subyektin obyektə təsir göstərməsi üsulu (formaları, vasitələri, metodları); subyektin fəaliyyətinin məqsəd və istiqaməti; hərəkətin təşkili (idarəetmə və tənzimetmə); hərəkətin sosial şəraiti (obyektiv şəraitin və subyektiv amillərin məcmusu); hərəkətin baş vermə məkanı (sosial lokallaşma); hərəkətin məqamı (onun aktual varlığının hüdudları); hərəkətin obyektiv nəticəsi (5, s.72).

Nəzərdə tutulmalıdır ki, bu sadalananların heç biri fəaliyyət sisteminin sözün əsl mənasında struktur komponenti hesab edilə bilməz, çünki onun təşkilat cəhətdən tərkib hissəsi deyildir. Onlar ən yaxşı halda subyektdə sosial hərəkət prosesində əmələ gələn xassələri, bəzi hərəkət aktının vəziyyətini ifadə edir.

Fəaliyyəti daxili yarımsistemlərə ayırmağın başqa bir səpkisi aşağıdakı üç meyardan (subyektiv-fəaliyyətlilik, funksional və sosiomədəni) çıxış edir. Birinci onu ifadə edir ki, fəaliyyət hansı subyekt tərəfindən həyata keçirilir? Bu suala cavab birmənalıdır: fəaliyyətin subyektini həmişə və hər yerdə insan təşkil edir. Lakin insan üç formada (ayrıca bir fərd və insanların birləşdiyi böyük və kiçik sosial qruplar və bütövlükdə cəmiyyət) ola bilir. İkinci meyar fəaliyyətin yönəldiyi sahə ilə bağlıdır, yəni fəaliyyətin nəyə yönəldiyini aşkar edir. Sözügedən funksional səpki insanın sosial əhəmiyyət kəsb edən aktivliyinin istiqamətlərini əks etdirir (iqtisadiyyat, nəqliyyat, rabitə, təhsil, tərbiyə, idarəçilik, müdafiə, səhiyyə, incəsənət, ekoloji fəaliyyət və s.). Son vaxtlar bu siyahıya informatik fəaliyyət də əlavə olunur. O, bir tərəfdən fəaliyyətin bütün sahələrinin informasiya-kompüter təminatını həyata keçirir, digər tərəfdən, kütləvi informasiya vasitələrinin işini əhatə edir.

Nəhayət, fəaliyyətin sosiomədəni səpkisi, onun necə həyata keçirildiyini və məcmu effektinin necə yarandığını öyrənir. Başqa sözlə deyilsə, sonuncu səpki fəaliyyətin bütöv sistem kimi effektiv mövcud olmasının mexanizmləri və vasitələrini aşkar edir. Bu səpki göstərir ki, müasir sivil cəmiyyətdə fəaliyyət bioloji deyil, ictimai və sosiomədəni formalarda həyata keçirilir. Buraya elə mexanizmlər və vasitələr daxildir ki, onlar, sanki bir-birindən uzaqdır, əslində isə eyni məqsəd güdür (maddi istehsal vasitələri, şüur, dövlət və digər bu qəbildən olan təsisatlar, sosial psixoloji ənənələr, dil, məişət və sair).

Aktivlik səciyyəsi baxımından yanaşdıqda, fəaliyyətin məzmununda üç əsas elementi seçib ayırmaq olar: a) aktivliyə malik olan və onu başqa obyektlərə və ya subyektlərə yönəldən subyekt; b) subyektin aktivliyinin yönəlmiş olduğu obyekt; c) aktivliyin özü, bu obyektin subyekt tərəfindən bu və digər üsulla

"ələ keçirilməsində" ifadə olunur və yaxud subyekt tərəfindən başqaları ilə kommunikativ qarşılıqlı təsirin bərqərar edilməsində özünü göstərir (6, s.45).

Birinci tərəf rolunda (fəaliyyətin subyekti) yuxarıda deyildiyi kimi, ayrıca bir fərd və ya insanların müəyyən sosial birlik forması çıxış edə bilər. Eynilə də ikinci tərəf, yəni fəaliyyətin obyekti müxtəlifdir. Bu rolu təbiət predmeti, hər hansı sosial institut və insanın özü yerinə yetirə bilər. Nəzərdə tutulmalıdır ki, müəyyən hallarda, yəni insanın aktivliyi öz daxili "Mən"inə, özünüdərkə və özünüdəyişdirməyə yönələrsə, onda insanın özü də aktivliyin obyekti olur.

Sistem kimi götürülən fəaliyyətin üçüncü yarımsistemi daha mürəkkəb məzmuna malikdir. Subyektin aktivlik enerjisi son dərəcə müxtəlif formalara yönəlir, özü də bu rəngarənglik fəaliyyəti şərtləndirən amillərdən də asılı olur. Məsələn, subyektin güddüyü məqsəddən asılı olaraq, fəaliyyətin dəyişdirici və idraki növlərini (habelə, dəyərləndirici növü), istifadə olunmuş vasitələrə görə maddi-praktik, praktiki-mənəvi, inikas edən mənəvi növlərini ayırmaq olar. Digər tərəfdən, fəaliyyətin bu yarımsistemi istehsaledici və istehlakedici növlərə bölünür. Sonra, fəaliyyətin yuxarıda göstərilən bütün növlərinin hər birinin tərkibində yaradıcı, produktiv tərəfi də reproduktiv, mexaniki tərəfi görmək olar. Nəhayət, subyektin aktivliyinin başqa obyektlərə deyil, digər subyektlərə yönəlmiş olduğu spesifik tipini kommunikativ və yaxud ünsiyyət tipini seçib ayırmaq zəruridir. Çünki fəaliyyət ayrıca bir subyekt tərəfindən deyil, bir-birilə qarşılıqlı əlaqədə olan müxtəlif subyektlərin birgə cəhdləri formasında həyata keçirilir.

Fəaliyyət, çoxtərəfli məzmuna malik olub, təkcə maddi istehsal sahəsi ilə məhdudlaşmır. O sosial reallığın digər tərəflərini (ictimai münasibətlər sistemi, insanların həyatının təşkilinin digər formaları, müxtəlif təşkilatların və institutların fəaliyyətinin tənzim olunması mexanizmi, ictimai şüur, biliklər, dəyərlər sistemi və sair) də əhatə edir. Müasir dövrdə qeyd olunan tərəflərin xüsusi çəkisi və təsir dairəsi daha da artır.

Fəaliyyətin əsas təyinatı, insan cəmiyyətinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün tələb olunan sosial şərait yaratmaqdır. Söhbət insanların varlığının təbiətdən yüksəkdə duran, yəni sosial mahiyyət kəsb edən mühitin (sosial münasibətlər sisteminin, mədəniyyətin və insanın özünün inkişafının) istehsalı və təkrar istehsalından gedir. Fəaliyyət prosesində təbiət və sosial həyat, habelə insanın özü, onun tələbatlarına müvafiq surətdə dəyişilir və yeniləşir. Beləliklə də təbiəti, cəmiyyəti, mədəniyyəti və insanın özünü əhatə edən sosial tərəqqi baş verir.

P.K.Anoxinin kəşf etmiş olduğu "funksional sistem" nəzəriyyəsinə arxalanmaqla, fəaliyyət sistemini təşkil edən çoxsaylı yarımsistemlərin daxili funksional əlaqələrini, onun kibernetik modelini yaratmaq olar. Bu halda onun əsas ünsürlərini aşağıdakılar təşkil edir: fəaliyyətin obyektivləşməsi, yəni müəyyən məhsula çevrilməsi, yəni hərəkət formasından sükunət halına

düşməsi üsulu; fəaliyyətin xarakterinin, onun məqsədlərndən, motivlərindən, hərəkətin görüldüyü şəraitə dair mövcud olan informasiyadan asılılığı; fəaliyyətin daxili determinasiyasını əks əlaqə prinispi üzrə həyata keçirən tənzimediciliklə əlaqələndirən idarə etmə mexanizmi; fəaliyyətin müxtəlif növlərinin, yarım növlərinin, konkret formalarının qarşılıqlı təsirinin xarakteri (bu qarşılıqlı təsir göstəricisi fəaliyyətin məqsədini daha effektiv üsulla əldə edilməsi naminə həyata keçirilir); fəaliyyətdə maddi və mənəvi, fiziki və psixi, daxili və xarici məqamların əlaqələndirilməsi qanunauyğunluqları (1, s.18).

Fəlsəfi və psixoloji ədəbiyyatda fəaliyyətin növləri məsələsi də birmənalı həll olunmur. Məsələn, B.Q.Ananyev fəaliyyətin üç əsas növünü göstərir: əmək, ünsiyyət və idrak (2, s.7). A.N.Leontyevə görə isə fəaliyyət iki növə (əmək və ünsiyyət) ayrılır (9, s.358). Q.S.Batişevin fikrincə, fəaliyyət aktivlik və ünsiyyətdən ibarətdir. O, həm də fəaliyyətin iki növə bölünməsini (real dəyişdirici və ideal dəyişdirici) təklif edir (6, s.105). Bu cür müxtəlifliyin bir səbəbi də odur ki, bu günə qədər fəlsəfi ədəbiyyatda fəaliyyəti növlərə ayırmağın kifayət qədər əsaslandırılımış meyarları işlənib hazırlanmamışdır. Belə bir meyarın subyekt-obyekt münasibətlərində olduğunu iddia edən M.L.Kaqan bizcə doğru hərəkət edir (6, s.51). Doğrudan da “subyekt” və “obyekt” bütöv bir tam kimi götürülən sistemin iki qütbünü təşkil edir. Lakin nəzərdə tutmaq lazımdır ki, bəzi halda eyni bir predmet bir münasibətdə subyekt, digər münasibətdə isə obyekt kimi çıxış edə bilir. Subyekt-obyekt münasibətləri səpkisində yanaşdıqda, fəaliyyətin aşağıdakı üç növünü ayırmaq olar: dəyişdirici (əmək), idraki və dəyərləndirici-səmtləndirici.

İlk nəzərdə belə görünə bilər ki, dəyişdirici fəaliyyət əmək ilə eynidir. Əslində isə o, əməkdən daha genişdir. Dəyişdirici fəaliyyət həm də praktika anlayışından genişdir, çünki o bütün fəaliyyət növləri üçün ümumi olan bir səpkini – dəyişdiricilik funksiyasını yerinə yetirir. Yönəldiyi obyektdən asılı olaraq dəyişdirici fəaliyyətin məzmunu üç yerə ayrılır: təbiətin dəyişdirilməsi, cəmiyyətin dəyişdirilməsi və insanın özünün dəyişdirilməsi. Birinci növ, əmək prosesində təbiət predmetlərinin yeniləşdirilməsini nəzərdə tutur. Hələ Marks göstərirdi ki, əmək insan ilə təbiət arasında baş verən elə prosesdir ki, onun gedişində insan özü ilə təbiət arasında maddələr mübadiləsini vasitələndirir, tənzim edir və ona nəzarət edir” (10, s.188).

İkinci növ – cəmiyyətin dəyişdirilməsi, inqilabi-dağıdıcı, yaradıcı və sosial təşkilati formalarda baş verir. Dəyişdirici fəaliyyətin üçüncü növünü insanın özünün, onun fiziki və mənəvi varlığının dəyişdirilməsi təşkil edir (həkimin və ya pedaqoqun fəaliyyəti). Dəyişdirici fəaliyyətin predmeti insan olduğu halda, fəaliyyətin sanki əlavə dördüncü növü özünü göstərir. Bu, insanın daxili “mən”inə istiqamətlənir və onun özünü təkmilləşdirir. Dəiyşdirici fəaliyyət, obyektinin xarakterindən asılı olaraq (yəni dəyişdirilən obyektin real və ya ideal olmasına görə) iki formada

(real və ideal) həyata keçirilir.

Birinci halda, mövcud maddi varlığın (təbiətin, sosialın və insanın) dəyişdirilməsi baş verir. Belə fəaliyyəti bir qayda olaraq praktika adlandırırlar. Fəaliyyətin ikinci formasında obyekt yalnız təxəyyüldə dəyişilir. Beləliklə də fəaliyyət xalis mənəvi əməliyyat kimi özünü göstərir. Lakin bu qəbildən olan fəaliyyət də çox əhəmiyyətlidir, çünki müəyyən real maddi-praktiki fəaliyyətin gələcək inkişafını təmin etmək üçün irəlicədən layihələr, modellər və proqramlar işləyib hazırlayır.

Dəyişdirici fəaliyyətin müxtəlif növləri bir-birindən həm də aşağıdakı göstəriciyə görə fərqlənir: onlar istehsal və yaxud da istehlak formasında olur. Qeyd olunmalıdır ki, istehsalın dəyişdirici fəaliyyətə aid edilməsi hamı tərəfindən qəbul olunur. İkincinin isə dəyişdirici fəaliyyət növü hesab edilməsi mübahisəlidir. Əslində istehlakın özü də müəyyən mövcud varlığın dəyişdirilməsi deməkdir, buna görə də hər bir istehlak dəyişdirici fəaliyyət növü hesab edilməlidir. Diqqətlə nəzər saldıqda aydın olur ki, istehlak istehsalın ayrılmaz tərəfi və başa çatma mərhələsidir. İstehsalda olduğu kimi, burada da subyekt obyekt üzərində yiyəlik edir. Əslində bunlar arasında fərq insan aktivliyinin dağıdıcı və yaradıcı tərəflərinin müxtəlif nisbətindədir.

Dəyişdirici fəaliyyətin daxili bölgüsünü verərkən, onun yaradıcı (produktiv) və mexaniki (reproduktiv) növləri bir-birindən fərqləndirilməlidir. Adından göründüyü bu halda söhbət fəaliyyət gedişində yeni predmetlərin yaradılmasından (yəni mövcud olan köhnədən fərqli və daha mükəmməl) və yaxud köhnə predmetlərin sadəcə sayının çoxaldılmasından gedir. Nəzərdə tutulmalıdır ki, bu bölgü əvvəlki ilə (istehsal və istehlak) üst-üstə düşmür. Çünki onların ikisində də yaradıcı və mexaniki formalar özünü göstərir.

Fəaliyyətin ikinci növündə, yəni idraki fəaliyyətdə subyekt obyektin real varlığına toxunmur, yalnız onu ideal formada dəyişdirir. Həmin dəyişilmə isə onun əsl varlığını fikrən əks etdirmək, onun dərinliyinə nüfuz etmək, mahiyyətini aşkar etmək naminə həyata keçirilir. Həm də nəzərdə tutulmalıdır ki, idraki fəaliyyətdə subyektin obyektə yönələn aktivliyi həmin obyekti modifikasiyaya uğratmır, onu dağıtmır və yenidən quraşdırmır. Onun tərəfindən həmin obyekt haqqında biliklər formasında əks etdirilir və onun özünə qaytarılır.

Dəyişdirici fəaliyyətdə olduğu kimi idraki fəaliyyət də təbiəti, cəmiyyəti, insanı obyekt kimi götürə bilir. İdraki fəaliyyətin nəticəsi, yəni dərketmə iki səviyyədə çıxış edir. Birinci praktik idrak adlanır. O praktiki fəaliyyət ilə birlikdə çıxış edir və öz nəticələrini insanların adi şüurunda həyat hikmətləri və yaxud praktiki təcrübə kimi yaşadır. İkinci pillədə isə idraki fəaliyyət sözün əsl mənasında götürülən elm səviyyəsinə yüksəlir. Artıq bu pillədə o praktikadan ayrılır, müstəqil və professional fəaliyyət forması kimi mövcud olur. Öz növbəsində, elmi idrak iki qnoseoloji səviyyəyə (empirik və nəzəri) ayrılır.

Elmi idrakdan danışarkən göstərilməlidir ki, onun əməliyyat apardığı müxtəlif obyektlər müəyyən spesifikliyə malikdir. Onun bu özünəməxsusluğu qismən idraki fəaliyyətin özünə də təsir göstərir.

İdraki fəaliyyətin spesifikliyi onu dərk edən subyektə, "mən"ə yönəldiyi hallarda daha çox aşkara çıxır. Bu halda idrak özünüdərkə çevrilir. Yəni subyekt olmaqla insan, həm də idrakın obyekti kimi çıxış edir, başqa sözlə sanki özündən aralanaraq, özünü kənardan müşahidə edir. Bu məqama diqqət yetirən T.Şibutani haqlı olaraq yazırdı: "... Mən" konsepsiyalarından söhbət getdikdə aydındır ki, insan burada eyni zamanda öz fəaliyyətinin həm subyekti, həm də obyekti kimi çıxış edir. Eyni bir orqanizm, fəal hərəkət edən şəxs və hərəkətin obyekti olduğu üçün, onun hərəkətlə bağlı hər cür meylliliyi subyektdə dəyişiklik əmələ gətirir, bu dəyişikliyi isə obyekt həmin andaca qəbul edir" (19, s.188).

Fəaliyyətin digər növləri kimi idraki fəaliyyət də hansı subyekt tərəfindən həyata keçirilməsindən asılı olaraq fərdi, kollektiv (qrup) və bütövlükdə cəmiyyət formasında baş verə bilir. Sonra, əvvəlki növ kimi idraki fəaliyyət də istehsaledici (yeni biliklərin yaradılması) və istehlakedici (əldə olunmuş biliklərin mənimsənilməsi) formalarından ibarətdir. Fərq yalnız bundadır ki, burada söhbət maddi istehsal və istehlakdan deyil, mənəvi istehsal və istehlakdan gedir. Sonuncular bir-birilə ayrılmaz vəhdətdədir. Belə ki, bir tərəfdən biliklərin istehsalı, yəni onların zənginləşməsi, dərinləşməsi və genişlənməsi prosesi, digər tərəfdən isə istehsal olunmuş biliklərdən istifadə olunması, onların qorunub saxlanılması və nəsildən-nəslə ötürülməsi prosesi baş verir.

Nəhayət, idraki fəaliyyətin də yaradıcı (produktiv) və mexaniki (reproduktiv) növləri bir-birindən fərqləndirilməlidir. Söhbət varlığın yeni-yeni qanunlarının kəşf edilməsinə gətirib çıxaran tədqiqat fəaliyyətindən və elmi yenilikləri yayan, onu kütlənin istifadə edə biləcəyi, sadələşmiş formaya salan fəaliyyətdən gedir.

Subyekt-obyekt münasibətlərinin xarakterinə müxtəliflik baxımından yanaşdıqda fəaliyyətin üçüncü mühüm tipini qiymətverici və ya dəyərləndirici – səmtləşdirici fəaliyyət təşkil edir. İdraki fəaliyyəti səciyyələndirərkən onun mənəvi məzmuna malik olduğunu qeyd etmişdik. Eyni fikir dəyərləndirici – səmtləndirici fəaliyyət haqqında da irəli sürülməlidir. Lakin bu fəaliyyət növü müəyyən spesifikliyə malikdir: o obyekt ilə subyekt arasındakı münasibətləri səciyyələndirdiyi üçün xalis obyektiv informasiya deyil, obyektiv-subyektiv informasiya verir. Onun verdiyi informasiya mahiyyətə deyil, dəyərlərə aid olur.

Bu müddəanı bir qədər ətraflı izah edək. Məsələyə dərindən yanaşqıqda məlum olur ki, insanın şüuru və idrakı təkcə gerçəkliyi obyektiv surətdə əks etdirməklə, elmi həqiqət axtarışı ilə məhdudlaşmır. Yəni o, təkcə reallığı insanın şüur və iradəsindən, arzu və istəyindən, məqçəd və idealından asılı olmayaraq inikas

etdirmək məqsədi güdmür. Onun ayrılmaz tərəfini, gerçəkliyi həm də insanların tələbat və mənafeləri səpkisindən, onlar üçün faydalılıq, dəyərləndirici mövqedən əks etdirmək təşkil edir. Məsələnin bu istiqamətinə lazımi diqqət yetirilmədikdə şüurun, subyektin inikasetdirici funksiyası sadəcə təhrif edilir. "İnikas" və "idrak", "şüur" və "idrak", "elm və ideologiya" anlayışları əsassız olaraq eyniləşir, həm də şüurun qiymətverici fəaliyyəti problemi sırf qnoseolojiləşdirilmiş formada çıxış edir. Qiymətvermə obyektiv münasibətlərin dərk olunması forması kimi izah olunur, bir obyektin digər obyekt üçün əhəmiyyətliliyinin dərki kimi təsəvvür edilir.

Fəlsəfi ədəbiyyatda haqlı olaraq qeyd edilir ki, dəyərləndirici münasibəti şüurun nisbi müstəqil xassəsi kimi götürülən dərkedici münasibətdən fərqləndirmək lazımdır. İdrak və qiymətləndirmə "idrak-qiymət-praktika" tsiklik sxeminin daxili nisbi müstəqil məqamlarıdır" (17, s.87). Bu müvafiq surətdə ideologiya, "dəyərlər sistemi" kimi "sadəcə biliklərin tərkib hissəsi" deyildir, biliklərdən praktikaya keçid vəsiləsini ifadə edir.

Dərketmə, bir-birilə yanaşı və ya bir-birilə qarşılıqlı təsirdə olan həmcins və yaxud müxtəlif növlü obyektlər arasında münasibətlərin inikası deməkdir. Bu münasibətləri bir sıra hallarda bir obyektin digər obyekt üçün əhəmiyyətliliyi kimi də göstərmək olar (Məsələn, günəş şüasının bitkilərin və heyvanların həyatı üçün əhəmiyyətli olması). Bu qəbildən olan əhəmiyyəti müəyyən etmək idrakın problemidir. Belə ki, obyekt, digər obyekt üçün əhəmiyyətli olduğu hallarda, həmin obyekt faydalılıq münasibətlərinin hüdudlarından kənara çıxmır. Həmin obyekti cansız və ya canlı təbiətə aid olmasından asılı olmayaraq, eyni dərəcədə "faydalılıq" kateqoriyası ilə ölçülür. Lakin bu hələ dəyər deyildir, çünki bu situasiyada bütün iştirakçılar obyekt kimi çıxış edir (dəyər isə subyekt-obyekt münasibətlərinin olmasını zəruri edir).

Təhlil sübut edir ki, inikasın iki forması (idraki və qiymətverici) vardır: onlar insanın adi şüurunda – psixi proseslərlə ayrılmaz əlaqəlidir: inikasın ikinci forması subyekt kimi götürülən insanın həyat fəaliyyəti, onun tələbatları və maraqları ilə müəyyən nisbətdədir. O, həm də insan psixikasının emosional- iradi mexanizmləri ilə əlaqəlidir (halbuki, idrak ilk növbədə, mücərrəd-məntiqi təfəkkür ilə bağlıdır).

Beləliklə, dəyərlər şüuru sferasında, subyektin obyektə elə münasibəti özünü göstərir ki, həmin münasibət, idrak prosesində və onun əsasında işlənib hazırlanmır, çünki, burada obyekt digər obyekt ilə deyil, subyektin tələbatları ilə nisbətdə götürülür. Belə münasibət informasiyanı, özünəməxsus başadüşməni, mənalandırmanı, möhkəmləndirməni və başqasına ötürməni tələb edir. Obyektin dəyəri, onun kənardan idrak aktının müəyyən olunan obyektiv əhəmiyyətindən fərqli olaraq, subyektin bilavasitə reaksiyası tərəfindən, özü də həmin obyektin bu subyektin həyat təcrübəsinə necə daxil olduğuna, özünə hansı münasibət

doğurduğuna, həmin obyeкtin emosional cəhətdən mənimsənilməsinə müvafiq surətdə müəyyən edilir. Əgər obyeкtin varlığı insan tərəfindən həqiqət кimi dərк olunursa, onun dəyəri nemət кimi, xeyirxahlıq кimi gözəlliк və əzəmət (qürur) кimi başa düşülür və yaşanılır.

Yuxarıda deyilənlərdən görünür кi, idraкi fəaliyyətin ali forması olan elm ilə insanın dəyərlər şüurunun oriyentasiyaları (siyasi, etiк, estetiк, dini və sair) arasında ciddi fərqlər mövcuddur.

## ƏDƏBİYYAT


1. Анохин П.К. Философские аспекты теории функциональной системы // Вопросы философии, 1981, №3., с.13-22.
2. Ананьев Б.Г. Человек как предмет познания. М., 1977, с.487.
3. Буева Л.П. Человек: деятельность и общение. М., 1988, с.215.
4. Вебер М. Основные социологические понятия (Избранные произведения). М., 1990, с.808.
5. Категории социальной диалектики. Минск, 1988, с.212.
6. Каган Л.М. Человеческая деятельность. М., 1989, с.274.
7. Крапивеньский С.Е. Социальная философия. М., 1997, с.411.
8. Лекторский В.В. Деятельностный подход: смерть или возрождение? // Вопросы философии, 2001, №2, с.60-65.
9. Леонтьев А.Н. Проблемы развития психики. М., 1987, с.422.
10. Маркс К., Энгельс Ф. Сочинения. Т.23, М., 1967, с.582.
11. Маркарян Е.С. Системные исследования человеческой деятельности // Вопросы философии, 1982, №10, с75-87.
12. Методологические проблемы исследования деятельности. М., 1986, с.223.
13. Момджян К.Х. Введение в социальную философию. М., 1998, с.448.
14. Сорокин П. Родовая структура социокультурных явлений. Человек. Цивилизация.Общество, М., 1992, с.476.
15. Rzayev M. Şəxsiyyətin fəlsəfəsi. Baкı, 2004, 389 s.
16. Проблема человека в современной философии. М., 1988, с.422.
17. Тугаринов В.П. Философия сознания. М., 1987, с.227.
18. Ойзерман Т.И. Материалистическое понимание истории: Плюсы и минусы. // Вопросы философии. 2001, №2, с.4-18.
19. Шибутани Т. Социальная психология. М., 1979, с.278.


## ДЕЯТЕЛЬНОСТЬ КАК СИСТЕМА И ЕЕ ОСНОВНЫЕ ЭЛЕМЕНТЫ


И.С.ГЫЛЫДЖЕВ


### РЕЗЮМЕ


В статье обосновывается важное значение применения системного метода для изучения сложных общественных феноменов, к числу которых относится и деятельность. Автор, исходя из различных критериев анализа, раскрывает внутреннюю структуру деятельности, подробно исследует ее субъектно-объектные подсистемы.

Особое внимание уделяется классификации видов деятельности, выявляются специфические черты преобразующей, познавательной и ценностно-ориентационной форм деятельности.